# Milli Məclisin Sədri Sahibə Qafarova TBMM Sədri Numan Kurtulmuşa başsağlığı verib



**Yanvarın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşa başsağlığı məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentin sədri Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin hotelində baş vermiş yanğın nəticəsində çox sayda insan tələfatı ilə əlaqədar TBMM-in Sədrinə və deputatlarına, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adından və Milli Məclisin deputatları adından dərin hüznlə başsağlığı verib, həlak olanlara Allahdan rəhmət diləyib, xəsarət alanlara şəfa arzularını ifadə edib.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 22 yanvar (№ 13).- S.3.